# Doğma ölkəmizdə

## Nəqliyyat sektoru üzrə daşımalarda qeyri-neft məhsullarının xüsusi çəkisi artır

Nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən cari ilin birinci yarısında 105,9 milyon ton və ya ötən ilin müvafiq dövrünə nisbətən 2,4 faiz çox yük daşınıb. Qeyri-neft yüklərinin həcmi 4,9 faiz artaraq 73,6 milyon faizi avtonəqliyyat, 24,4 faizi boru kəməri, 10,6 faizi dəmiryolu, 5,7 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilib.

İlin 5 ayında nəqliyyatçılar 820,2 milyon nəfərə və ya əvvəlki ilin eyni dövru ilə müqayisədə 7,7 faiz çox sərnişinə xidmət göstəriblər. Sərnişinlərin 87,1 faizi, avtomobil, 12,7 faizi metro nəqliyyatı xidmətlərindən istifadə edib.

Daşımalarda nəqliyyat sektoru liderlik edir.

## Şərurda yeni yaşayış yeri aşkar olunub

Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda arxeoloji tədqiqatlar aparan Azərbaycan və ABŞ ekspedisiyası yeni yaşayış məskəni aşkar edib. «Qızqala» adlanan ərazi yaxınlığında aparılan ilkin araşdırmalar göstərir ki, yaşayış yeri Eneolit, Erkən Tunc, Orta Tunc, Dəmir dövrlərini və orta əsrlərə aiddir. Ərazisi 8 hektar sahəni əhatə edir.

* * *

Digər maddi-mədəniyyət nümunələri Goranboy rayonu ərazisindəki Uzunrəmə Kurqan çölündə də aşkar edilmişdir. Aparılan arxeoloji qazıntı zamanı onların ilk tunc dövrünə aid Kurqanaltı sərdabələr olduğu müəyyən edilmişdir. Tokio Universitetinin laboratoriyasının «Karbon-14» analizlərinə əsasən bu kurqanlar IV minilliyin sonuna aiddir.

## Əhalinin gəliri artır

Dövlət Statistika Komitəsindən verilən məlumata görə bu ilin yanvar-iyun aylarında ölkə əhalisi ümumilikdə 15,8 milyard manat və ya ötən ilin müvafiq dövru ilə müqayisədə 7,1 faiz çox gəlir əldə edib. Gəlirin hər nəfərə düşən həcmi isə 5,7 faiz artaraq 1708,8 manat və ya ayda orta hesabla 284,8 manat olub.

İyulun 1-nə əhalinin banklardakı əmanətləri əvvəlki ilin eyni dövru ilə müqayisədə 35,5 faiz artaraq 5 milyard 981,5 milyon manata çatıb Qoyulan əmanətlərin 75 faizi özəl banklarda yerələşdirilib.

# TƏBRİK EDİRİK!

**Müzəfərli Salih Elnur oğlu**



Səni 12 avqust ad gününün münasibətilə təbrik edirik, Sənə həyatda ən şirin nemət olan cansağlığı, xoşbəxtlik və səadət arzulayırıq!

Babaların Müsavər və Abdulhəmid, atan Elnur, anan Marina, nənələrin Alagöz və Solmaz, əmin Məhərrəm, bibilərin Sevda və Fəxriyyə, dayın Taleh.

## Futbol

## Topaz Premyer Liqası

**Birinci dövrə**

**I tur**

**02 avqust (cümə)**

1. "Bakı" (Bakı) – "Qəbələ" (Qəbələ)

**03 avqust (şənbə)**

2. "Neftçi" (Bakı) – AZAL (Bakı)
3. "Simurq" (Zaqatala) – "Rəvan" (Bakı)

**04 avqust (bazar)**

4. "Sumqayıt" (Sumqayıt) – "Xəzər Lənkəran" (Lənkəran)
5. "İnter" (Bakı) – "Qarabağ" (Ağdam)

# ELANLAR

Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən hüquqi şəxs Şirinov İsrail Səməd oğlunun adına verilmiş reyestr nömrəsi 406013004353, inventar № 406-1/2888, tərtib edilmə tarixi 28.04.2008 olan AA 001120 №-li Torpaq sahəsinin planı və ölçüsü barədə sənəd **itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayon aqrar islahat komissiyası tərəfindən 15 may 1998-ci il tarixli 9 nömrəli qərarla Həmzəlli kənd sakini Rəşidov İnqilab Vahid oğlunun və ailə üzvlərinin adına verilmiş JN 208 saylı (kod 40605018) Torpağın mülkiyyət hüququna Idair Dövlət aktı **itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayon aqrar islahat komissiyası tərəfindən 15 may 1998-ci il tarixli 9 nömrəli qərarla Həmzəlli kənd sakini Rəşidova Məryəm Rəsul qızının və ailə üzvlərinin adına verilmiş JN 207 saylı (kod 40605018) Torpağın mülkiyyət hüququna dair dövlət aktı **itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayonunun Vəndam kənd sakini Mustafayeva Turac Afəddin qızına Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Rayon Ərazi idarəsi tərəfindən 27 avqust 2008-ci il tarixdə 406013005173--10301 reyst №-li inventar №-406-46/ə1496 verilmiş fərdi yaşayış evi üçün Daşınmaz əmlakın texniki pasportu **itdiyi üçün** etibarsız sayılır.

# Ağayev Əliş Ağa oğlu



Qəbələ ictimaiyyətinə, Qəbələ ziyalılarına ağır itki üz vermişdir. Rayon ağsaqqallar şurasının sədr müavini Ağayev Əliş Ağa oğlu iyul ayının 29-da axşam iş üstündə ömrünün 72-ci ilində qəflətən vəfat etmişdir.

Ağayev Əliş Ağa oğlu 1942-ci ildə Qəbələ şəhərində (o vaxtlar Qutqaşın kəndində) kəndli ailəsində anadan olmuşdur. Tam orta məktəbi bitirdikdən sonra tibb texnikumunu bitirmiş, rayon gigiyena və epidemiologiya mərkəzində sanitar həkim köməkçisi kimi əmək fəaliyyətinə başlamışdır. 1962-1965-ci illərdə hərbi xidmətdə olmuşdur. Vətən borcunu şərəflə yerinə yetirən gənc Əliş orta ixtisas təhsili ilə də kifayətlənməmiş, elə həmin ilin yayında Azərbaycan Dövlət Pedaqoji İnstitutunun biologiya fakültəsinə daxil olmuşdur. 1969-cu ildə institutu müvəffəqiyyətlə bitirdikdən sonra Azərbaycan Kommunist Partiyası Qəbələ Rayon Komitəsində təlimatçı vəzifəsinə, sonralar siyasi maarif kabinetinin müdiri, şöbə müdiri vəzifələrinə irəli çəkilmişdir.

1991—1992-ci illərin əsasız təzyiqləri ondan da yan keçməmiş, bir müddət işlədiyi vəzifədən uzaqlaşdırılmış, sonralar rayon təhsil şöbəsitndə metodist vəzifəsində çalışmış, 1992-ci ildə rəhbər işdə təcrübəsi nəzərə alınaraq rayon icra hakimiyyətində baş məsləhətçi vəzifəsinə təyin olunmuşdur. Daha sonra icra hakimiyyətində kadrlar üzrə baş müfəttiş, 2001-ci ildən isə Qəbələ şəhər inzibati ərazisi nümayəndəsinin müavini vəzifələrində çalışmışdır.

2009-cu ildən pensiyaçıdır. Həmin dövrdən ömrünün sonuna qədər rayon ağsaqqallar şurası sədrinin müavini vəzifəsində işləmişdir.

22 iyun 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun əməyi yüksək qiymətləndirilmiş, həmin tarixli sərəncam ilə Ağayev Əliş Ağa oğlu uzun müddət dövlət qulluğunda səmərəli fəaliyyət göstərdiyinə görə «Dövlət Qulluğunda fərqlənməyə görə» medalı ilə təltif olunmuşdur. O, işlədiyi idarələrdə də verilən tapşırıqları həmişə layiqincə yerinə yetirdiyinə görə rəhbərlik tərəfindən dəfələrlə fəxri fərmanlara və təşəkkürlərə layiq görülmüşdür.

Ağayev Əliş Ağa oğlu harada işləməsindən, hansı vəzifədə çalışmasından asılı olmayaraq yerinə yetirdiyi vəzifəyə məsuliyyətlə yanaşmış, işlədiyi kollektivlərdə dostluq, sədaqət, insanlara hörmət və qayğı, bütün ictimai işlərdə xüsusi fəallıq onun əsas amalı olmuşdur.

Mərhumun xatirəsi onu tanıyanların qəlbində uzun müddət yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ.**

# ALLAH RƏHMƏT ELƏSİN

Rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev və şuranın üzvləri, şura sədrinin müavini

**ƏLİŞ AĞAYEVİN**

qəflətən vəfatından kədərləndiklərini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Qəbələ rayon Ağsaqqallar Şurasının sədr müavini

**ƏLİŞ AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxın qohumlarfına dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Qızıl Aypara Cəmiyyətinin sədri Sədaqət Bayramova

**ƏLİŞ AĞAYEVİN**

vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

«Qəbələ» qəzetinin kollektivi rayon ağsaqqallar şurasının sədr müavini

**ƏLİŞ AĞAYEVİN**

vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru və kollektivi adından

**ƏLİŞ AĞAYEVİN**

vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

*Məsul katib*
*N. R. Atakişiyev.*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Məsul növbətçi*
*M. Ə. Rəhimov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2142.